**NAHAQMIŞ**

Dilə-dişə nahaq saldım sözümü,
Sevənlərin dərdi çoxmuş, sən demə.
İçin-için əritmişəm özümü,
Bu sevdanın sonu yoxmuş, sən demə.

Nahaq inanmışam qismətə, baxta,
Eşqi-məhəbbəti, saxtaymış, saxta.
Köksüm dönüb olub bir quru taxta,
Bu sevdanın sonu yoxmuş, sən demə.

Elə düşünürdüm odur pənahım,
Nahaqmış bir belə amanım, ahım.
Onu sevməyimmiş böyük günahım,
Bu sevdanın sonu yoxmuş, sən demə.

Firdovsiyəm, ötən günlərdən genəm,
Nə adla danışam, nə adla dinəm...
Nahaqdan odlara qalandı sinəm,
Bu sevdanın sonu yoxmuş, sən demə.

**BAĞIŞLA MƏNİ**

Bilirəm, bu sevdada vardır böyük günahım,
Odur ki, heç azalmır nə amanım, nə ahım...
Səhvi bağışlayandır Yaradanım, Allahım,
Unut olub-keçəni, qayıt, bağışla məni.

Tənəli sözlərinlə dağlayırsan sinəmi,
Pərən-pərən salaram yeri, göyü, aləmi.
Sən mənim günahımdan keçməyəsən yenəmi?
Unut olub-keçəni, qayıt, bağışla məni.

Bir yol günah eylədim, yüz yol məni öldürmə,
Özgələrə dil verib arxamızca güldürmə,
Üzülürəm, səhvimi bilməyənə bildirmə,
Unut olub-keçəni, qayıt, bağışla məni.

Sən ayrılıb gedəli dünyam qara geyibdi,
Dərd-qəmin ac qurd kimi ürəyimi yeyibdi.
Eh, bəlkə də arxamca kimlər nəsə deyibdi,
Unut olub keçəni, qayıt, bağışla məni.

Səni özüm bilirəm, ürəyimə girsənə,
İnanmıram qəlbimdə başqa biri görsənə,
Bu eşqin yollarında əl açıram mən sənə,
Unut olub-keçəni, qayıt, bağışla məni.

Ümidimə söykənib yol gedirəm sabaha,
Səhvimdən çox peşmanam, üzmə məni bir daha.
Şirin xəyallarımı gəl batırma günaha,
Unut olub-keçəni, qayıt, bağışla məni.

**DÖNMƏYƏCƏYƏM**

Deyirsən iztirab bir gün bitəcək,
Can verən eşqimiz sona yetəcək.
O eşqin ünvanı daha itəcək,
Getsəm, bir də geri dönməyəcəyəm.

Bu sevdanın əzabından bezmə sən,
Qismətimi tapdalayıb, əzmə sən,
Getməyimə bəhanələr gəzmə sən,
Getsəm, bir də geri dönməyəcəyəm.

Sil göz yaşlarını, daha ağlama,
Ürəyimi çarın-çarpaz dağlama,
Get deyib, üzümə qapı bağlama,
Getsəm, bir də geri dönməyəcəyəm.

Sonu qəm-qüssəymiş bu məhəbbətin,
Həsrətilə dil tapmaq çətindən-çətin...
Gedərəm, qurtarar sözün-söhbətin,
Getsəm, bir də geri dönməyəcəyəm.

Bir dözüm, iradə, tapıb özümdə,
Elə gedərəm ki, qalmaz izim də,
Firdovsiyəm, yalan yoxdur sözümdə,
Getsəm, bir də geri dönməyəcəyəm.

**MƏN YADINA DÜŞÜRƏMMİ, GÖRƏSƏN?**

Qəlbimdə göynərti aşıb-daşanda,
Getdiyim yolları hərdən çaşanda,
Göydə ulduzumuz qoşalaşanda,
Mən yadına düşürəmmi, görəsən?

Bağça-bağın vaxt-vədəsiz solanda,
Ürəyin sıxılıb, gözün dolanda,
Dörd divarın arasında qalanda,
Mən yadına düşürəmmi, görəsən?

Bənövşələr boynu bükük bitəndə,
Arzuların, ümidlərin itəndə,
İnsanların harayına yetəndə,
Mən yadına düşürəmmi, görəsən?

Dünya salır hər bir işi çəminə,
Bürünmüşəm sənsizliyin qəminə,
Bizim taleyimiz: “Zaur-Təhminə”,
Mən yadına düşürəmmi, görəsən?



FİRDOVSİ FAHRALI